**“Sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə**

**Azərbaycan RESPUBLİKASININ Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. (Qüvvədən düşüb)

II. «Sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1993-cü il, № 1, maddə 2) qüvvədən düşmüş hesab edilsin.

III. «Rabitə haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 6, maddə 463) 33-cü maddəsinə aşağıdakı dəyişikliklər edilsin:

adından «və sığortası» sözləri çıxarılsın;

beşinci hissə çıxarılsın.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 16 may 2000-ci il**

**№ 883-IQD**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2750.**